***İNDİ BİR NİSGİL YAMAN YANDIRIB-YAXIR BİZİ***

Günəş kimi parladın,
Nura boyandı elim.
Qıfıllanıb qalmışdı,
Açıldı bağlı dilim.

Ölüm ilə üz-üzə
Dayandıq düşmən ilə-
Faciələr içində
Tuş olmuşduq əcələ.

Ümid yeri puç idi...
Ümid yeri sən oldun.
Millәti xilas edən,
Millәti sevən oldun.

Sapı özündən olan
Baltaları əritdin,
Alınmış satqınları
Haqq sözünlə kiritdin.

Çox ağrılar-acılar
Çəkdi bu millət onda-
Torpağımız hərraca
Qoyulub satılanda.

Sən gəldin, böyük adın
Adımızı ucaltdı,
Döyüş meydanlarında
Ordumun gücü artdı.

Sən gəldin, çiçək açdı
Yurdum, güldü bənizlər,
Güldü illərdən bəri
Ağlar qalan o gözlər

İndi bir nisgil yaman
Yandırıb-yaxır bizi-
Sənsizliyə öyrədə
Bilmir heç birimizi.

***Valeh Mirzə***
***Azərbaycanın qoşa qanadı. – B. : Təhsil, 2006. – S.330-331.***